# Kiçikyaşlı məktəblilərin təlim fəaliyyəti zamanı müəllimin qarşılaşdığı psixoloji çətinliklər

**Nərmin İlham qızı Abdullayeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Pedaqoji psixologiya kafedrasının*
*fəlsəfə doktoru proqramı üzrə dissertantı*
**E-mail:** nermin.abdullayeva.1991@inbox.ru
orcid.org/0000-0002-9308-9125

**Rəyçilər:** psixol.ü.f.d., dos. N.T. Rzayeva,
psixol.ü.f.d., dos. U.M. Qəzvini

**Açar sözlər:** kiçikyaşlı, məktəbli, təlim, fəaliyyəti, müəllim, problem, psixoloji, sinif
**Ключевые слова:** младший школьник, обучение, деятельность, учитель, проблемы, психологический, класс
**Key words:** primary, school children, training, activities, teacher, problem, psychological, class

Hər müəllim pedaqoji fəaliyyətində tədrisin pedaqoji-psixoloji problemləri ilə üzləşir. Kiçikyaşlı məktəbliləri tanımaq, onların daxili imkanlarına bələd olmaq, onlara fərdi və diferensial yanaşmaq, onların hər birinin təlimi üçün bərabər imkanlar yaratmaq, sinifdə münbit psixoloji iqlim formalaşdırmaq, mövcud olan problemləri həll etmək, ən əsası öz pedaqoji fəaliyyət və ünsiyyətini həyata keçirmək psixoloji biliklər olmadan mümkün deyildir.

Kiçikyaşlı məktəblilərin təlim fəaliyyəti zamanı ibtidai sinif müəllimlərinin qarşılaşdıqları psixoloji çətinliklər obyektiv və subyektiv çətinliklər kimi meydana çıxır, müəllimin pedaqoji fəaliyyət və pedaqoji ünsiyyətinin səmərəsini endirir. Pedaqoji situasiyanın gerçəkləşdirilməsi zamanı müəllimin fəaliyyətinə bir sıra obyektiv çətinliklər də əsaslı təsir edir (sinfin şəraiti, maddi-texniki təchizat və s.).

"Psixoloji biliyin məktəb praktikasında tətbiqini çətinləşdirən digər səbəb müəllimlərin bir qismində psixologiyadan bilavasitə istifadə edə bilməmək, psixologiyanın tətbiqi imkanlarını və əməli əhəmiyyətini görə bilməmək zəminində bu elmə yaranmış laqeyd, birtərəfli münasibətlə bağlıdır. Həmin müəllimlər belə hesab edirlər ki, "yaxşı dərs" demək üçün yalnız müvafiq fənnin tədrisi metodikasını bilmək kifayətdir" [8, səh.36]. Həmçinin müəllimin öz peşəsinə münasibəti də təlim prosesinin həyata keçirilməsinə birbaşa təsir edir və özüylə bərabər bir sıra problemlərə yol açır. Müəllimlərin tədris prosesində qarşılaşdıqları psixoloji çətinlikləri yaradan bir sıra hallara nəzər salaq:

— Müəllimlər tərəfindən kiçikyaşlı məktəblilərin cins, yaş, fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınmaması;

— Kiçikyaşlı məktəblilərə fərdi və diferensial yanaşmanın psixoloji əsaslarına malik olmamaq;

— Sinfin bilik və mənimsəmə səviyyəsinin (zəif, orta, yüksək) fərqli olmasını (onların hər biri ilə müvafiq iş aparılmasını zəruri edir) nəzərə almamaq;

— Sinifdəki psixoloji prosesləri idarə edə bilməmək (səmərəli münbit psixoloji iqlim formalaşdırmamaq);

— Sinifdəki sosial prosesləri idarə edə bilməmək (əlverişli ünsiyyət və qarşılıqlı münasi-

bətlərin qurulması sahəsində olan problemlər);

— Pedaqoji fəaliyyət və ünsiyyətini onlara müvafiq qurmamaq;

— Onların təlim fəaliyyətində mövcud olan çətinliklərin fərqində olmamaq və vaxtında aradan qaldırmaq üçün müvafiq tədbirlər görməmək.

Biz bu məqalədə kiçikyaşlı məktəblilərin daxili səbəblərilə şərtlənən çətinliklər və onların müəllim tərəfindən nəzərə alınmasının vacibliyi üzərində dayanmaq istəyirik. Kiçikyaşlı məktəblinin öz daxili xüsusiyyətlərindən (imkanlarından) irəli gələn təlim çətinliklərinə aiddir: Təlimə düzgün münasibət bəsləməmək; təlim vərdişlərinin olmaması; öyrənmə qabilliyinin zəif olması yaxud olmaması; təlim motivinin zəif olması; idrak qabiliyyətinin zəif olması; idrak marağının zəif olması; kiçikyaşlı məktəblilərin cins, yaş, fərdi-psixoloji xüsusiyyətlərindən, motivləşməsindən, özünüqiymətləndirməsindən irəli gələn spesifik çətinliklər və s.

Pedaqoji təxəyyül imkan verir ki, müəllim əvvəlcədən tədris fəaliyyətini, baş verə biləcək bir sıra problemləri təsəvvür etsin, təhlil etsin, həmçinin empatiya qabiliyyəti əsasında öz şərh etməsinin, yanaşmasının öyrənənlər tərəfindən necə qəbul edilməsini təxmin etsin. Kiçikyaşlı məktəblilərin daxili xüsusiyyətlərini nəzərə almamaqdan qaynaqlanan bu tip çətinliklər müəllimlərin pedaqoji fəaliyyətində daha sıx müşahidə olunur. Kiçikyaşlı məktəblilərin daxili imkanları ilə (psixi proseslərin, hal və xassələrin inkişaf xüsusiyyətləri ilə) müəllimin onlardan tələb etdiyi potensial üst-üstə düşmür. Öz daxili imkanlarına görə özləri ilə qarşıdurmaya tərk edilirlər. Nəticədə onların daxilində ziddiyyətin, münaqişənin yaranmasına səbəb olur. Nəzərə almaq lazımdır ki, onların hamısı eyni səviyyəyə malik deyillər. Müəllim təlimi səmərəli təşkil etmək üçün aşağıdakı suallara cavab axtarmalıdır: Kiçikyaşlı məktəbli təlimə necə münasibət bəsləyir? (Təlimi sevir, maraq göstərir, sevmir, biganə və istəksizdir). Kiçikyaşlı məktəblinin mənimsəmə tempi necədir? (asanlıqla, tez, çətinliklə, yavaş). Təlim materiallarını necə mənimsəyir? (sürətlə, ləng, çətinliklə, güclə, yəni məcburiyyətlə, yaxud yerinə yetirməyi rədd edir). Kiçikyaşlı məktəbli hansı dərketmə üsuluna sahibdir? (linqvistik/söz, məntiqi/riyazi, vizual/məkan, bədən/kinestetik, musiqi/səs, naturalistik/təbiət, fərdlərarası, fərddaxili dərketmə). Müəllim həmin dərketmə üsullarına uyğun olaraq öz təlim üslubunu müəyyənləşdirməlidir: Şifahi, məntiqi, visual, fiziki, dinləmə, audial, müşahidə, sosial, individual təlim üsulu.

Müəllim hazırlığı işində perseptiv qabiliyyətin yüksəldilməsi, pedaqoji fəaliyyətə psixoloji hazırlıq məsələsinə diqqət daha da artırılmalıdır. Bizə məlumdur ki, kiçikyaşlı məktəblilərin təlim çətinliklərinin böyük bir qismi onların daxili səbəblərindən qaynaqlanır. Ancaq burada bir faktı nəzərə almaq lazımdır ki, müəllim, həm də onların psixi inkişafına dəstək olmalıdır. Hal-hazırki təhsil proqramları təlimin psixi inkişafa təkan verməsi (inkişafı öz arxasınca aparması) istiqamətində hazırlanmışdır. Ona görə də pedaqoji fəaliyyətlə məşğul olan müəllimlər bu göstəricini daim öz fəaliyyətlərində nəzərə almalıdırlar. Fərdi-psixoloji xüsusiyyətlərin mərhələli bir şəkildə tərbiyə və inkişaf etdirilməsinin mümkünlüyünü müəllimlərin diqqətinə çatdırmaq istəyirik.

Kiçikyaşlı məktəblilərin daxili imkanlarının zəifliyindən irəli gələn bir sıra çətinliklər müəllimin düzgün pedaqoji, psixoloji təsiri ilə həll və inkişaf etdirilə bilər. Deməli, müəllim həm də onların psixikasına əsaslı təsir edən, zənginləşdirən, inkişaf etdirən şəxsdir. Biz burada müəllimin pedaqoji imkanlarının (xarici təsirlərlə daxili imkanların inkişaf etdirilməsinin mümkünlüyü) yetərincə istifadə edilmədiyinə diqqəti yönəltmək istəyirik. Qeyd etdiyimiz bütün növ çətinliklər bir-birindən fərqləndiyi kimi onları aradan qaldırmaq və onlara təsir etmə formaları da fərqli olmalıdır. Müəllimin əsas vəzifələrindən biri uyğun pedaqoji və psixoloji təsir üsulu seçməkdir. Müəllim çətin məqamlarda məktəb psixoloqunun xidmətindən istifadə etmək barədə düşünməli və məktəb psixoloqu, valideynlərlə əməkdaşlıq şəraitində işləməlidir.

“Psixoloji biliklərin tətbiqinin özünəməxsus çətinlikləri vardır. Psixoloji biliklərin uşaqların təlim praktikasında tətbiqini çətinləşdirən əsas səbəblərdən biri ondan ibarətdir ki, psixoloji tədqiqatlar psixikanın ayrı-ayrı proseslərinin analizinə həsr edilir. Psixoloji biliyin məktəb praktikasına tətbiqini çətinləşdirən ikinci səbəb də vardır. Biz psixoloji biliklərin birbaşa deyil, dolayı yollarla - pedaqogika və fənlərin tədrisi metodikası vasitəsilə tətbiqini nəzərdə tuturuq” [8, səh.35].

İbtidai sinif müəllimlərinin istifadəsi üçün metodik vəsaitlərlə yanaşı, psixoloji məlumat kitablarının (konkret məktəb yaşını əhatə edən) hazırlanmasına böyük ehtiyac vardır. Kiçikyaşlı məktəblilərin təlim, tərbiyə (diqqətin, hafizənin, təfəkkürün, təxəyyülün, iradənin, hisslərin tərbiyəsi) və inkişaf (kompleks inkişaf- koqnitiv, əxlaqi, mənəvi, sosial, iradi-emosional, motivasiya) məsələləri ilə bağlı nəzəri və praktik əhəmiyyətli bilikləri özündə ehtiva edən vəsaitlərin hazırlanmasını və müəllimlərin bu cür mənbələrdən davamlı olaraq faydalanmasını tövsiyə edirik.

**Məqalənin aktuallığı.** Kiçikyaşlı məktəblilərin təlim fəaliyyəti zamanı müəllimin qarşılaşdığı psixoloji çətinliklərin müəyyənləşdirilməsi ibtidai təhsilin aktual problemlərindəndir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə kiçikyaşlı məktəblilərin təlim fəaliyyəti zamanı müəllimin qarşılaşdığı psixoloji çətinliklər ətraflı şəkildə şərh olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürdüyümüz təklif və tövsiyələr məktəb psixoloqları, ibtidai sinif müəllimləri, “Təhsildə sosial-psixoloji xidmət”, “İbtidai sinif müəllimliyi” ixtisasları üzrə bakalavriat və magistratura pilləsində təhsil alan tələbələr, həmçinin ibtidai təhsilin pedaqoji və psixoloji problemlərini araşdıran gənc tədqiqatçılar və doktorantlar üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. Əliyev B., Əliyeva K., Cabbarov R. Pedaqoji psixologiya: Dərslik. Bakı: Təhsil, 2011, 256 s.
2. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Pedaqoji psixologiya: Dərslik. Bakı, 2010, 600 s.
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqogika, 2004, 432 s.
4. Əmrahlı L.Ş. Yeniləşən təhsilin psixoloji problemləri. Bakı: Mütərcim, 2010, 276 s.
5. İbtidai siniflərdə fənn kurikulumlarının tətbiqi nəticələrinin təhlili (Azərbaycan dili, riyaziyyat). Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, 2015, 212 s.
6. İlyasov M., Nəzərov M. Didaktika: Dərs vəsaiti. Bakı, 2015, 113 s.
7. İlyasov M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri: Monoqrafiya. Bakı: Elm və təhsil, 2018, 208 s.
8. Ə.Ə. Əlizadə. Müəllimlərin psixologiya sahəsində hazırlıq səviyyəsinin yüksəldilməsi // Azərbaycan məktəbi, 1980, № 10, s. 31-38.
9. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs: Pedaqoji universitetlərin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti. Bakı: Elm və təhsil, 2010, 464 s.
10. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008, 480 s.

**Н.И. Абдуллаева**

## Психологические трудности, с которыми сталкивается учитель в процессе учебной деятельности учащихся начальных классов

## Резюме

Можно решить и улучшить трудности учеников начальной школы с правильными педагогическими и психологическими эффектами учителя. Таким образом, учитель также человек, который непосредственно влияет, обогащает и развивает их психологию. Мы хотим убедиться, что учитель не использует возможности педагогики адекватно (возможно развитие внутренних возможностей посредством внешних воздействий). Все слабости, о которых мы говорим, отличаются друг от друга, и способ их устранения и влияния на них должен быть разным. Одной из основных функций учителя является выбор подходящего педагогического и психологического метода воздействия. Педагогу следует подумать об использовании услуг школьного психолога в трудные времена и работать вместе со школьными психологами и родителями.

**N.I. Abdullayeva**

## The psychological difficulties faced by the teacher during the training activity of primary school children

## Summary

It is possible that a number of difficulties, which are caused by the weakness of the internal opportunities of primary school children, can be solved and improved with the correct pedagogical, psychological impact of the teacher. Thus, the teacher is also the person who directly affects, enriches and develops their psychology. We want to make sure that the teacher does not use pedagogical opportunities sufficiently (it is possible to develop internal opportunities through external influences). All of the weaknesses we talk about are different from each other, and the way they remove and influence them must be different. One of the main functions of the teacher is to choose the appropriate pedagogical and psychological influencing method. The teacher should think about using the school psychologist's service in difficult times and work with school psychologists and parents in a mutual way.

**Redaksiyaya daxil olub:** 30.01.2020